## “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI[1]

«Reklam haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti bir ay müddətində:

qüvvədə olan normativ-hüquqi aktların «Reklam haqqında» Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

«Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanlarının icazəsinin verilməsi qaydalarını müəyyən edib Azərbaycan Respublikası Prezidentinə təqdim etsin;

«Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının razılığı tələb olunan halları və razılığının verilməsi qaydalarını hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

«Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin uyğun olaraq 1-ci və 2-ci bəndlərində nəzərdə tutulmuş, müvafiq icra hakimiyyəti orqanlarının razılığı tələb olunan halları və razılığının verilməsi qaydaları barədə təklifləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

«Reklam haqqında» Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən normativ-hüquqi aktların layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə nəqliyyat vasitələrində yayılan reklamın məhdudlaşdırılması halları barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının «Reklam haqqında» Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu haqda Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

öz səlahiyyətləri daxilində həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, on gün müddətində:

«Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulan «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini həyata keçirən orqanları müəyyən edib Azərbaycan Respublikası Prezidentinə təkliflər təqdim etsin.

3. Müəyyən edilsin ki:

«Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini rayon və şəhər icra hakimiyyəti orqanlarıvə "İçərişəhər" Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirirlər;[2]

«Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsi həyata keçirir;

«Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin 2-ci bəndində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasınınvə *Yüksək Texnologiyalar* Nazirliyi həyata keçirir;[3]

«Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinin 3-cü, 3-1-ci və 6-cı bəndlərində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;[4]

«Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinin 2-ci bəndində və 3-cü bəndinin dördüncü abzasında nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanları»nın səlahiyyətlərini Azərbaycan Respublikasınınİqtisadiyyat və Sənaye Nazirliyi və onun yerli qurumları həyata keçirirlər;[5]

«Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 26-cı maddəsinin 1-ci bəndinin birinci və ikinci abzaslarında, 27-ci maddəsinin 1-ci bəndində, 2-ci bəndinin birinci və ikinci abzaslarında və 3-cü bəndində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasınınİqtisadiyyat və Sənaye Nazirliyi və onun yerli qurumları həyata keçirir;[6]

«Reklam haqqında» Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin 2-ci bəndinin birinci abzasında nəzərdə tutulan «müvafiq dövlət orqanları»nın səlahiyyətlərini müvafiq olaraq rayon və şəhər icra hakimiyyəti orqanları, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsi, Azərbaycan Respublikasının Rabitə və *Yüksək Texnologiyalar* Nazirliyi həyata keçirirlər.[7]

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 24 noyabr 1997-ci il
644

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 11 oktyabr 2001-ci il tarixli 587 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 10, maddə 640**)
2. 24 avqust 2002-ci il tarixli 767 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 8, maddə 487**)
3. 7 fevral 2005-ci il tarixli 193 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 2, maddə 69**)
4. 31 yanvar 2008-ci il tarixli 704 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 1, maddə 8**)

5. 3 may 2013-cü il tarixli **874** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti 4 may 2013-cü, 94 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 495)**

6. 25 iyun 2013-cü il tarixli **922** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 26 iyun 2013-cü il, 137; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 06, maddə 650)**

7. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **"Azərbaycan" qəzeti 16 may 2014-cü il, 101** )

8. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027)**

9. 14 iyul 2015-ci il tarixli **554** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ( **"Respublika" qəzeti, 17 iyul 2015-ci il, 153; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 822)**

-

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 14 iyul 2015-ci il tarixli **554** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 iyul 2015-ci il, 153; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 07, maddə 822**) ilə "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanı ləğv edilmişdir.

[2] 31 yanvar 2008-ci il tarixli **704** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 1, maddə 8)** ilə 3-cü bəndinin ikinci abzasında "**həyata keçirir**" sözləri "**və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirirlər**" sözləri ilə əvəz edilmişdir.

3 may 2013-cü il tarixli **874** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti 4 may 2013-cü, 94 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 05, maddə 495)** ilə 3-cü hissəsinin birinci bəndində birinci halda "**Qoruğu**" sözü "**və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları**" sözləri ilə əvəz edilmişdir.

[3] 7 fevral 2005-ci il tarixli **193** nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 2, maddə 69** ) ilə 3-cü bəndin dördüncü abzasında "**Rabitə Nazirliyi**" sözləri "**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi** " sözləri ilə əvəz edilmişdir.

[4] 25 iyun 2013-cü il tarixli **922** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 26 iyun 2013-cü il, 137; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 06, maddə 650** ) ilə 3-cü hissəsinin beşinci abzasında "**3-cü və 6-cı**" sözləri "**3-cü, 3-1-ci və 6-cı**" sözləri ilə əvəz edilmişdir.

[5] 11 oktyabr 2001-ci il tarixli **587** nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 10, maddə 640** ) ilə 3-cü bəndin altıncı abzasında "**Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi** " sözləri "**İqtisadi İnkişaf Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **"Azərbaycan" qəzeti 16 may 2014-cü il, 101** ) ilə 3-cü hissəsinin altıncı abzasında "**İqtisadi İnkişaf**" sözləri "**İqtisadiyyat və Sənaye**" sözləri ilə əvəz edilmişdir.

[6] 11 oktyabr 2001-ci il tarixli **587** nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 10, maddə 640** ) ilə 3-cü bəndin yeddinci abzasında "**Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi** " sözləri "**İqtisadi İnkişaf Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

24 avqust 2002-ci il tarixli **767** nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 8, maddə 487** ) ilə 3-cü bəndin yeddinci abzasında "**3-cü və 4-cü bəndlərində** " sözləri "**və 3-cü bəndində** " sözləri ilə əvəz edilmişdir.

14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ( **"Azərbaycan" qəzeti 16 may 2014-cü il, 101** ) ilə 3-cü hissəsinin yeddinci abzasında "**İqtisadi İnkişaf**" sözləri "**İqtisadiyyat və Sənaye**" sözləri ilə əvəz edilmişdir.

[7] 7 fevral 2005-ci il tarixli **193** nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 2, maddə 69** ) ilə 3-cü bəndin səkkizinci abzasında "**Rabitə Nazirliyi**" sözləri "**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi** " sözləri ilə əvəz edilmişdir.

2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**) ilə 3-cü hissənin dördüncü və səkkizinci abzaslarında "**İnformasiya Texnologiyaları**" sözləri "**Yüksək Texnologiyalar**" sözləri ilə əvəz edilmişdir.